**Şəhərə giriş ulu öndər Heydər Əliyevin adını daşıyan prospektdən başlanır. Elə ilk addımdan, sanki, nağıllar aləminə düşürsən. Geniş asfalt yol yaşıl tuneli xatırladır. Divarları, hasarları, səki kənarlarını əlvan güllər-çiçəklər bəzəyir. Adama elə gəlir ki, şəhər bu güllərin, çiçəklərin dili ilə qonaqlara "xoş gəlmisiniz" deyir.**

**Horadiz dairəsinə çatanda yollar haçalanır. Düz getsən rayonun Qazaxlar, Mirzənağılı kəndlərinə, oradan da Cəbrayılın Cocuq Mərcanlı kəndinə çatarsan. Sola burulan yol isə Horadizin mərkəzinə gedir. Elə bir qonaq tapılmaz ki, bu dairədə ayaq saxlamasın, son illər burada yaradılmış gözəl mənzərəyə göz dolusu baxmasın. Əlbəttə, hər şeydən əvvəl hündür təpənin üstündə salınmış Bayraq meydanı kompleksi qəlbimizdə yüksək duyğular və iftixar hissləri oyadır.**

*Fotoreportaj*

# HORADİZ – gözəllik və müasirliyin harmoniyası






10 hektar sahədə yaradılmış bu abidənin zirvəsindən, az qala, külli Qarabağ görünür. Əvvəllər çılpaq bir ərazi olan bu yüksəklikdə və onun ətəklərində 10 mindən çox ağac və gül kolları əkilmiş, kompleksə qalxmaq üçün sağ və sol tərəflərdə hər biri 287 pillədən ibarət pillələn tikilmiş, maşın yolu çəkilmiş, 3 yerdə istirahət guşəsi yaradılmışdır.

Son illərdə istifadəyə verilmiş avtovağzal binası, 31 Mart və Xocalı soyqırımları və Qarabağ savaşı şəhidlərinin,1941--1945-ci illər müharibəsi qurbanlarının xatirələrinə, Aprel döyüşlərində qələbə şərəfinə ucaldılmış abidələr və Milli qəhrəmanlar parkı isə Horadiz dairəsinin sağ tərəfində salınıb. Hazırda burada Bayraq muzeyinin tikintisi aparılır.

Heydər Əliyev prospekti ilə mərkəzə doğru irəlilədikcə şəhərə xüsusi gözəllik və yaraşıq verən binalar bir-birini əvəz edir – Heydər Əliyev Mərkəzi, Heydər Əliyev parkı, YAP rayon təşkilatının binası, Gənclər mərkəzi, Olimpiya İdman Kompleksi... Əvvəllər istifadəsiz qalmış ərazidə son illər salınmış Gənclər prospekti də gül-çiçəyə, yaşıllığa qərq olub. Füzuli Rayon İcra Hakimiyyətinin inzibati binası, Rəsm qalereyası, tarix-diyarşünaslıq muzeyi, statistika idarəsi və başqa binalar bu yeni küçənin hüsnünü bəzəyir.








Bir sözlə, hara üz tutduqsa bizi gözəllik, müasirlik, yüksək zövq və səliqə-sahman qarşıladı. Təkcə belə bir faktı xatırlatmaq kifayətdir ki, son illər şəhərdə 120 mindən çox qızılgül, 50 mindən çox bəzək ağacı əkilib, müxtəlif yerlərdə fəvvarələr, bulaqlar quraşdırılıb.

Bəli Horadiz, demək olar ki, hər gün böyüyür, genişlənir, gözəlləşir. Bu yerlərə bir gələn bir də gəlmək istəyir, hər tərəfi bürümüş gözəlliklərdən zövq alır. Bu mənzərələri görənlər cəbhə xəttinin ikiaddımlığında düşmənin gözünə ox kimi batan bu möcüzəni yaradanlara ürəkdən gələn bir səmimiyyətlə "sağ ol!" deyirlər.

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***